

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 188 (23.099)

4 oktyabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.

Səfir Milan Ekert etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin səviyyəsindən və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə edib, eyni zamanda ələqələrimizin Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığı baxımından da önəmini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz həyata keçirilən əməkdaşlığın digər sahələrdə də yaxşı nəticə verməsində maraqlıdır və dövlətimizin başçısı buna nail olunacağına əminliyini ifadə edib.

Fövqəladə və səlahiyyətli səfir Milan Ekert ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Səfir vurğulayıb ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından keçən 25 il ərzində ikitərəfli münasibətlərimizin inkişafında böyük nəticələr əldə edilib.



## Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq məktubu göndərib



21-23 sentyabr tarixlərində Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyi tərəfindən Naxçıvan şəhərində “Avropa günləri” keçirilmişdir.

Sentyabrın 28-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova məktub göndərərək “Avropa günləri”nin keçirilməsi üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

Məktubda deyilir: İlk dəfə idi ki, Avropa İttifaqının nümayəndəliyi, Avropa İttifaqına üzv dövlətlərin Azərbaycandakı 17 səfiri, o cümlədən Danimarkanın Ankarada və Finlandiyanın isə Helsinkidəki səfirləri birlikdə Naxçıvan Muxtar Respublikasına səfər etmişlər. Rəsmi görüşlərdən sonra 8 orta məktəbdə və 2 universitetdə Avropa İttifaqı və üzv dövlətlər barədə təqdimatlar keçirilmişdir. Paralel olaraq, dil dərsləri və ERASMUS+ və Gənc Avropa Səfirlərinin təqdimatları təşkil olunmuşdur. İqtisadiyyat və kənd təsərrüfatı nazirləri, eləcə də yerli sahibkarlarla biznes görüşü baş tutmuşdur. Nümayəndə heyətinin üzvləri reabilitasiya mərkəzində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla görüşmüşlər. Əhalinin bütün qrupları üçün keçirilmiş son tədbir olan “Avropa şəhərciyi”, təxminən, 40-45 min nəfərin iştirakı ilə nümayəndəliyin Azərbaycanda keçirdiyi ən böyük məlumatlandırma tədbiri olmuşdur.

“Avropa günləri Naxçıvanda” tədbiri uğur qazanmış, hər iki tərəf arasında marağın, etimadın və əməkdaşlığın yeni səviyyəsini nümayiş etdirmişdir.

Sizin yardımınız və dəstəyiniz olmadan bu tədbir uğur qazana bilməzdi.

Hörmətlə,

**Kestutis Yankauskas,**
**Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri**

## Naxçıvan Avtomobil Zavodunda elektromobil istehsal olunacaq

*Naxçıvanda elektromobil istehsal ediləcək. Bununla bağlı Naxçıvan Avtomobil Zavodunda hazırlıqlara başlanılıb. Layihənin qısa zamanda həyata keçirilməsi planlaşdırılır.*



Naxçıvan Avtomobil Zavodunun direktoru Musa Abdullayev bildirib ki, bundan əlavə olaraq “LİFAN minivenləri”nin bazasında təcili tibbi yardım üçün istifadə oluna biləcək avtomobillərin 2019-cu ilin əvvəlində təcrübə-sınaq məqsədilə eksperimental nümunələrinin yığımı da həyata keçiriləcək.

Musa Abdullayev qeyd edib ki, 2010-cu ildən fəaliyyət göstərən zavodda bu günədək 5 mindən çox avtomobil istehsal olunub. Zavodda ilkin olaraq “Lifan” markalı 4 model avtomobil istehsal edilib və “NAZ Lifan” brendi altında satışa çıxarılır. Hazırda ticari avtomobillər də daxil olmaqla, 14 fərqli model istehsal edilir.

Naxçıvan Avtomobil Zavodunun direktoru qeyd edib ki, zavodda avtomobil sənayesində tətbiq olunan ən müasir dizayn, təhlükəsizlik və ekoloji normalara uyğun avtomobillər istehsal olunur. Bu illər ərzində satış və xidmət şəbəkəsi genişləndirilib, avtomobillərin keyfiyyətinə verilən zəmanət müddəti və yürüş məsafəsi artırılaraq 3 il və ya 150 min kilometrə çatdırılıb. Hazırda zavodda dizayn və parametrlərinə görə müasir biznes sedan olan “NAZ Lifan 820” və “NAZ Lifan 330” modelləri, satış sayına, keyfiyyətinə və dözümlülüyünə görə zavodun flaqmanı olan “NAZ Lifan 620” modelinin yeni dizayn və ekonomik mühərriklə təchiz edilmiş “NAZ Lifan 650” (“NAZ Lifan 620-II”) modeli və krossover sevənlər üçün xarici və daxili görünüşü yenilənmiş, yanacaq sərfiyyatı daha az olan mühərriklə təchiz edilən “NAZ Lifan X60” modeli istehsal olunur.

Direktor əlavə edib ki, zavodda istehsal olunan avtomobillərin maya dəyərinin aşağı salınması məqsədilə bəzi ehtiyat hissələrinin də istehsal olunması planlaşdırılır.

**“Nuhçıxan” İnformasiya Agentliyi**

## Lyuk Koffi: Naxçıvanın tarixiliyi və müasirliyi məni valeh etdi



Oktyabrın 3-də Amerikanın nüfuzlu düşüncə mərkəzi olan “İrs” Fondu yanında Duqlas və Sara Ellisonlar adına Xarici Siyasət Araşdırmaları Mərkəzinin direktoru Lyuk Koffi Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Qonaq muxtar respublikanın bir sıra gəzməli-görməli yerlərində olub.

“Şərq qapısı” qəzetinə müsahibəsində Lyuk Koffi qədim diyarla bağlı təəssüratlarını bölüşüb:

– İlk olaraq onu deyim ki, bu, mənim Naxçıvana birinci səfərim olsa da, qədim diyarınızla tanışlıq məndə böyük təəssürat yaratdı. Buradakı təmizlik və səliqə-sahman, insanların qonaqpərvərliyi, mehriban münasibəti, xüsusilə diqqətimi cəlb etdi, mən burada çox xoş vaxt keçirdim. Onu da qeyd edim ki, Naxçıvanın tarixiliyi və müasirliyi məni valeh etdi. Duzdağ Fizioterapiya Mərkəzini, Naxçıvanqalanı və Nuh Peyğəmbərin türbəsini ziyarət etdim, burada gördüklərim barədə dostlarımı və yaxınlarımı da məlumatlandıracağam. Naxçıvanı daha da yaxından tanımaq üçün buraya bir daha gəlmək niyyətindəyəm.

## Bu il Naxçıvanın su anbarlarına 195 milyon kubmetr su ehtiyatı yığılıb

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, muxtar respublikada suvarmanı mütəşəkkil həyata keçirmək məqsədilə tərtib edilmiş qrafikə uyğun olaraq nasos stansiyalarında, hidrotexniki qurğularda təmir-bərpa işlərinin aparılması, kanallarda, arxlarda, kollektor və drenaj kanallarının lildən təmizlənməsi ötən dövrdə də diqqət mərkəzində saxlanılıb. Sututarlarda tələb olunan təmir işləri aparılıb və suvarma suyundan istifadəyə nəzarət artırılıb.



2018-ci ilin yanvar-sentyabr ayları ərzində Naxçıvan Muxtar Respublikası ərazisində olan Arpaçay Su Anbarına 130,8, Heydər Əliyev Su Anbarına 32,7, Bənəniyar Su Anbarına 15,4, Uzunoba Su Anbarına 7,2, Sirab Su Anbarına 4,6 milyon kubmetr olmaqla, ümumilikdə, sututarlara 195,3 milyon kubmetr su ehtiyatı yığılıb.

Su istifadəçilərinə 225,8 milyon kubmetr su verilib, bunun müqabilində 188 min 273 hektar torpaq sahəsi suvarılıb.

Cari aylarda 189 kilometr beton və torpaq kanal, 252 kilometr ara arxlar lildən təmizlənib, 62,7 kilometr yeni suvarma boru xətti, 9 kilometr yeni içməli su xətti çəkilib, 17 kilometr suvarma boru xətti, 46,6 kilometr içməli su xətti təmir-bərpa olunub.

## Quruculuq ünvanlarının sayı artır



Naxçıvan şəhərinin Heydər Əliyev prospekti son illərin quruculuq, abadlıq tədbirlərindən pay alaraq yeni simasına qovuşub, binalarda aparılan təmir-bərpa işləri sayəsində sakinlərin mənzil-məişət şəraiti xeyli yaxşılaşıb. İnşa olunan yeni yaşayış binası da gələcəkdə sakinləri yüksəkkeyfiyyətli rahat mənzillərlə təmin edəcək.

Zirzəmi ilə birlikdə 4 blok və 7 mərtəbədən ibarət olan yaşayış binasının inşasına ötən ilin oktyabr ayından başlanılıb. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları hazırda obyektin tikintisini sürətlə həyata keçirir. İnşaatçılar geyim formaları və lazım olan avadanlıqlarla təmin ediliblər.

Binanın birinci blokunun 4-cü, digər blokların isə 5-ci mərtəbələrində qəlib-beton işləri görülür. Zirzəmiyə hörgü-suvaq vurulur, digər mərtəbələrdə isə hörgü aparılır.

Layihəyə əsasən yaşayış binasında lift quraşdırılacaq. Zirzəmidə 29 yerlik avtomobil dayanacağı yaradılacaq, birinci mərtəbədə 12 mağaza istifadəyə veriləcək. Obyektdə kifayət qədər işçi qüvvəsi çalışır. Tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə edilir, keyfiyyət amilinə xüsusi önəm verilir.

* * *

Bu ilin may ayından Naxçıvan şəhərində polis məktəbi üçün kompleks tikilir. Məktəb kompleksinə tədris korpusu, qərargah, yeməkxana və yataqxana binaları daxildir.







İkimərtəbəli tədris korpusunda laboratoriyalar, kitabxana, sinif, həmçinin elektron sinif otaqları daxil olmaqla, digər otaqlar da fəaliyyət göstərəcəkdir. Burada orta ixtisas təhsilli polis əməkdaşlarının hazırlanması üçün ən müasir şərait yaradılacaq.

Kompleksin ərazisində yaşıllıqlar salınacaq və müasir işıqlandırma sistemləri qurulacaqdır.

**Xəbərlər şöbəsi**




# İqtisadiyyat







## Torpaq ona tər verənə zər verər

### *Şahbuzlu zəhmət adamları bu fikirdədirlər*

***Muxtar respublikamızın iqlim şəraiti və hələ qədim dövrlərdən bəri əhalinin, əsasən, kənd təsərrüfatı ilə məşğul olması burada əkinçilik mədəniyyətinin formalaşmasını şərtləndirən amillərdən biridir. Əkin sahələrinin ildən-ilə genişləndirilməsi diyarımızı ölkəmizin ən çox kənd təsərrüfatı məhsulları istehsal edən regionlarından birinə çevirib.***

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda aqrar islahatların aparılmasına ilk dəfə Naxçıvanda başlanılması da təsadüfi deyil. Muxtar respublikamızda özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşdırılmasında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin




ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", həmçinin icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın mühüm rolu vardır.

Şahbuz rayonunun zəhmətkeş insanları da islahatdan sonra torpaqlarının əsl sahibinə çevrildilər. Qısa bir zamanda rayonda əkinçilik sürətlə inkişaf etməyə başladı. Xüsusilə də kartofçuluq. Çünki Şahbuz rayonu muxtar respublikada bu sahənin inkişafı üçün ən əlverişli bölgədir. Kartof əkini sahələrini genişləndirmək, sahibkarlığı inkişaf etdirmək, əhalinin kartofa olan tələbatını ilboyu ödəmək, xüsusən də kənd əhalisinin məşğulluğunu artırmaq məqsədilə rayonda ardıcıl tədbirlər həyata keçirilib, bu gün də keçirilir. İllərdən bəri torpaq mülkiyyətçilərinə kreditlərin verilməsi, onların keyfiyyətli kartof toxumu və gübrələrlə təmin olunması bu sahəyə olan marağı daha da artırmış, nəticədə isə əkin sahələri genişləndirilmişdir. İndi zəhmət adamları bu qida məhsuluna olan tələbatlarını tamamilə ödəyir, istehsal etdikləri məhsulun artıq qalan hissəsini bazarlara çıxarıb satmaqla öz ailə gəlirlərini artırır, eyni zamanda muxtar respublika sakinlərini də yerli kartofla təmin edirlər. Əvvəllər məhsullarını satmaq üçün yer tapa bilməyən torpaq mülkiyyətçilərinə bu sahədə də yüksək dövlət qayğısı göstərilir. Muxtar respublikamızın bütün şəhər və rayonlarında təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkaları onlara imkan verib ki, istehsal etdikləri məhsulları vaxtında, zay olmadan sata bilsinlər. Nəticədə, ucuz və keyfiyyətli yerli məhsullar bazarlarımıza xaricdən gətirilən keyfiyyətsiz məhsulları da artıq sıxışdırıb çıxarıb. Bütün bu qayğılardan bəhrələnən kənd adamları isə torpağa baş əyir, yaxşı yaşamaq üçün zəhmətdən gözəl vasitə olmadığını dərk edirlər.

Şahbuz rayonunun kartofçuluq üçün əlverişli olan torpaqları Ağbulaq, Gömür, Kükü, Aşağı Qışlaq, Güney Qışlaq, Nursu, Keçili kəndlərinin ərazilərindədir. Rayonun torpaq mülkiyyətçiləri 2017-ci ildə 424 hektar sahədə kartof əkini keçirib. Cari ildə isə əkin sahələri artırılaraq 435 hektara çatdırılıb ki, bu da ötən illə müqayisədə 11 hektar çoxdur. Torpaq mülkiyyətçilərini keyfiyyətli toxum materialı ilə təmin etmək məqsədilə onlardan 46 nəfərinə 17,3 hektar üçün 51 min 900 kiloqram toxum alınaraq verilib.

Gündəlik olaraq süfrələrimizdə çörəkdən sonra ən çox istifadə etdiyimiz kartofun tərkibi, yetişdirilməsi, ona qulluq barədə mütəxəssis fikirlərinin lazımlı olacağını nəzərə alıb bu barədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əsgər Həsənovla söhbətləşdik. O dedi: – Muxtar respublikamızda kartof yetişdirilməsinin qədim tarixi vardır. Təcrübə göstərmişdir ki, diyarımız kartofçuluğun inkişafı üçün çox əlverişli torpaq və iqlim şəraitinə malikdir. Son illərdə muxtar respublikamızın Şərur, Ordubad, Babək və Şahbuz rayonlarında torpaq mülkiyyətçiləri tərəfindən kartof əkinlərinin sahəsi xeyli artırılmışdır.

O bildirdi ki, kartof bitkisinin ərzaq, texniki və yemlik əhəmiyyəti böyükdür. Kartofun tərkibində 76,3 faiz su, 23,7 faiz quru maddə vardır ki, bunun da 14-22 faizini nişasta və təxminən, 2 faizini zülallar təşkil edir. Bundan əlavə, kartofda müxtəlif vitaminlər, şəkər, mineral duzlar var. Zəngin qidalılıq tərkibinə görə kartofu haqlı olaraq "ikinci çörək" də adlandırırlar. Belə isə kartof əkini də taxıl əkini qədər vacib bir məsələdir. Nəzərə alsaq ki, hər bir bitki növünün əkilib-becərilməsi, çoxaldılması üçün münbit şərait lazımdır, kartof əkini üçün Şahbuz rayonu muxtar respublikamızın ən əlverişli bölgələrindən biri hesab edilə bilər. Rayonda qədim əkinçilik mədəniyyətinə uyğun olaraq torpaqların bitirəcəyi, yetirəcəyi və məhsul verəcəyi əkin növləri məlumdur. Bunu illərdir, həmin əkin növlərini tətbiq edib nəticəsini görən kənd adamları yaxşı bilirlər. Elə rayonda kartofçuluğun inkişaf texnologiyasını bilənlər də çoxdur. Kartof əkini sahələrindən bol məhsul əldə etməyin yolunu, dilini bilən elə kənd adamları var ki, onların əkində tətbiq etdikləri üsullar bu gün də özünü doğruldur. Kənd adamı daim torpaqla təmasda olduğu üçün onun nələrə qadir olduğunu da yaxşı bilir.

Rayonun ən yaxşı kartofçularından Ayrınc kənd sakini Süreyya Quliyeva və Aşağı Qışlaqda yaşayan Bayram Rəcəbovla da söhbət etdik. Süreyya xanım söhbətə belə başladı: – Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, yetmiş il əsarətində yaşadığımız sovet dövründə torpaqlarımız özümüzünkü olmadı. Kənd adamı öz evinin həyətindəki üç-dörd metrlik torpaq sahəsindən başqa heç nəyin sahibi deyildi. Lakin o illərdə digər milli adət-ənənələrimiz kimi, qədim əkinçilik mədəniyyətini də qoruyub yaşada bildik. Çünki bir gün torpaqlarımızın özümüzünkü olacağına inanırdıq. Budur, artıq 20 ildən çoxdur ki, torpağımızın sahibiyik. Bu il ailə üzvlərimlə birlikdə torpaq sahəmizdə 16 ton kartof yetişdirdik. Əldə etdiyimiz məhsuldan ailəmizin qışboyu istifadəsi və gələnilki əkin üçün toxum ayırdıq, qalanını isə bazara çıxardıq. Özünüz təsəvvür edin, götürdüyümüz gəlir nə qədər ehtiyacımızı ödəyər. Onu da deməyi özümə borc bilirəm ki, bu məhsulu heç də təkbaşına əldə etməmişik. Bizə həmişə dövlət qayğısı göstərilib və mən bu qayğıya görə ailəm adından minnətdaram.

Bayram Rəcəbov isə bu il 8 ton məhsul toplayıb. Bu zəhmət adamı ilə söhbətimiz də maraqlı oldu. O dedi: – Ulu Dədə Qorquddan xalqımıza miras qalan bir söz yadigarı var: – Torpağı qorumasan, əkib-becərməyə dəyməz, əkib-becərməyəcəksən, qorumağa dəyməz. Bu gün övladlarımız sərhədlərimizdə gecə-gündüz torpaqlarımıza keşik çəkir, qoruyurlarsa, bizim də borcumuz onu əkib-becərməkdir. Torpaq üzərində yaşayan, ona əmək verib əzizləyən, tər tökən heç kimin əməyini əvəzsiz qoymur. Torpaq ona üz tutub, öz ruzisini ondan istəyəni əliboş qaytarmır. O halda ki torpağın bağrına atılan hər bir dən, toxum yığım anınadək diqqətdə saxlanıla, ona böyük qayğı ilə yanaşıla. Əkmək şərt deyil, onu becərmək şərtdir.

Şahbuzlu torpaq mülkiyyətçilərinin hər biri bu fikirdədirlər ki, məhsul bolluğu üçün təbiətin üç amilinin vəhdəti gərəkdir. Torpaq, insan və su. Torpaq öz ağuşunu insana açırsa, insanı "Sən mənə tər ver, mən sənə zər", – deyib zəhmətə səsləyirsə, deməli, insanın ondan qaçmağı, uzaqlaşmağı özünə ziyan edir. Məhsul bolluğuna təminatın bir tərəfi isə sudur. Su problemi olmayanda, təbii ki, əkilən sahədən bol məhsul götürmək olar. Bu gün rayonda su ilə bağlı heç bir problem yoxdur. Yeni su kanallarının çəkilməsi, su nasos stansiyalarının qurulması, su arxlarının erkən yazdan sakinlər tərəfindən təmizlənməsi torpaq mülkiyyətçilərini suvarma suyu ilə bağlı çətinliklərdən azad edib. İndi Şahbuzda kənd adamlarının torpağa bağlanması üçün bütün şərait var. Belə isə onların hər birinə uğurlar arzulayır, əkdiyinizin ikiqat, üçqat artığını götürəsiniz, – deyirik.

✍ **Mətanət MƏMMƏDOVA**

## Müştəri məmnunluğu müəssisənin başlıca hədəfidir




***Muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, muxtar respublikada bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələrin sayı artır. Yaradılan müəssisələr bir tərəfdən, ərzaq və qeyri-ərzaq məhsullarının bolluğuna, digər tərəfdən isə əhalinin məşğulluğunu təmin edir.***

Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Yaxın günlərdə müəssisədə olduq və öyrəndik ki, dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılıb. Bu sahələrdə Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Sahibkarlığın İnkişafı Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilib. Bu vəsaitlə çörək sexində avtomatik xətt istifadəyə verilib. Burada 5 növ undan çörək istehsal olunur. Çörəyin dəmir üzərində deyil, daş üzərində bişirilməsi onun daha keyfiyyətli olmasına imkan verir. Onu da qeyd edək ki, artıq bir neçə aydır müəssisədə "boradin" çörəyi də bişirilir. Bu çörək digərlərindən tərkibindəki vitaminlərə görə fərqlənir.

Müəssisədə istehsal sahələri ilbəil genişləndirilir. 2012-ci ildə burada kəpəkli çörək istehsalına başlanılıb. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək keyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanır.

Müəssisənin makaron sexində istehsal edilən bir neçə növdə makaron müxtəlifölçülü kisələrdə qablaşdırılır. İtaliya istehsalı olan 4 qurutma sobasından istifadə etməklə, saatda 300 kiloqram makaronun istehsal edilməsi daxili bazara öz töhfəsini verir.

2011-ci ildə müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılıb, burada hazırlanan milli şirniyyat nümunələrimiz – şəkərbura, Ordubad və Şəki paxlavaları, şəkərçörək, şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır. Şirniyyat istehsalı sahəsində saatda 200 kiloqram peçenye, 2 ton müxtəlif şirniyyatlar istehsal olunur.

Müəssisənin süd istehsalı sahəsində isə Hollandiya, Almaniya və Türkiyə istehsalı avadanlıqlardan istifadə olunaraq müxtəlif çəkilərdə 10 çeşiddən çox süd məhsulları istehsal edilir. Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. İstehsal sahələrində istifadə



olunan xammalların 60 faizi yerli məhsullardır.

"Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil olunub. Müəssisədə işçilər gündə bir dəfə pulsuz yeməklə təmin edilirlər.

Müəssisənin məhsullarından istifadə edən insanlarla da görüşdük.

Əslən naxçıvanlı olub Bakıda yaşayan Zeynəb Məmmədova bildirdi:

– İllərdir, işimlə əlaqədar olaraq Bakı şəhərində yaşayıram. Naxçıvana gələndə hər sahədəki inkişafı görür, çox sevinirəm. Mağazalardakı bolluq isə nəyə desən, dəyər. Xüsusilə yerli məhsullarla dolu rəfləri görəndə lap ürəyim açılır. "Gəmiqaya Bərəkət Qida Məhsulları" firma mağazası ata ocağımızın yaxınlığında yerləşir. Hər dəfə Naxçıvana gələndə bu mağazada satılan məhsullardan alıb Bakıdakı yaxınlarıma, qonşularıma sovqat aparıram. Deyim ki, buradan aldığım qovurulmuş əriştə ev şəraitində hazırlanan əriştədən seçilmir. Şirniyyatların da dadına, tamına söz ola bilməz. Buradan aldığım süd məhsulları – pendir, qaymaq, ayran xeyli keyfiyyətlidir, min bir dərdin dərmanıdır.

Bütün bunlar onu deməyə əsas verir ki, əvvəllər alıcılar xaricdən gətirilən ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara daha çox maraq göstərirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**



# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzi qoşunların döyüş hazırlığında əhəmiyyətli rol oynayır

***Təlimlər hər bir ordunun döyüş hazırlığında əsas istiqamətlərdən sayılır. Çünki yetərli döyüş qabiliyyəti bacarıqlarına yiyələnmədən, peşəkarlığa nail olmadan real döyüş əməliyyatlarını yerinə yetirmək mümkün deyil. Son illərdə dünya müdafiə sənayesində mühüm dəyişikliklərin baş verməsi, xüsusilə çoxsaylı hərbi texnika və mamulatların elektron idarəetmə sisteminə keçidi hərbi sənayedə bir sıra nailiyyətlərin qazanılmasına gətirib çıxarıb.***

Bu uğurların əsasını isə döyüş əməliyyatlarını qısa müddətdə aparmaq və canlı itki sayını minimuma endirmək təşkil edir. Təbii ki, hazırda müasir hərbi sənayenin yenilikləri yalnız o ölkələrin ordularında tətbiq edilir ki, həmin ölkələrin dayanıqlı iqtisadi potensialı olsun. Çünki ordu üçün böyük vəsaitlərin tələb olunduğu modernləşmə ciddi investisiyalar tələb edir. Bu mənada, son illərdə ölkəmizdə hərbi müdafiə sənayesinin inkişaf etdirilməsi, bunun da nəticəsində silahlı qüvvələrimizin qoşun və birləşmələrinin maddi-texniki bazasının yenilənməsi olduqca böyük əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikasında da Əlahiddə Ümumqoşun Ordunun yaradılmasından ötən müddət ərzində onun komplektləşdirilməsi sahəsində görülən işlər muxtar respublikamızın hərbi potensialını xeyli artırmışdır. Bu illər ərzində muxtar respublikadakı hərbi hissələrdə infrastruktur yeniliklərinin tətbiqi, qoşun və birləşmələrin milli, eyni zamanda dünya hərbi sənayesinin ən müasir silah və texnikaları ilə təmin olunması ordumuzun yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan vermişdir. Ancaq, təbii ki, texnika ilə təminat məsələnin bir tərəfidirsə, digər tərəfi şəxsi heyətin müasir döyüş hazırlığı qabiliyyətinə yiyələnməsidir. Bu mənada, son illərdə muxtar respublikamızda yeni təlim mərkəzlərinin, hərbi məqsədlər üçün nəzərdə tutulmuş çöl və poliqonlarda lazımi şəraitin yaradılması, nəhayət, şəxsi heyətin belə şəraitdən layiqincə istifadəsi üçün imkanların səfərbər edilməsi mühüm əhəmiyyət daşıyır. Cari ilin may ayının 16-da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına növbəti səfəri çərçivəsində tanış olduğu Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsindəki Təlim-Tədris Mərkəzi də bu gün zabit və əsgərlərimizin peşəkarlığının artırılmasına öz töhfəsini verir. Elə biz də bu günlərdə həmin mərkəzdə olduq, təlim-tədris obyektinin fəaliyyəti ilə maraqlandıq.

Təlim-Tədris Mərkəzinin zabiti Asif Dadaşov bildirdi ki, 3 mərtəbədən ibarət olan bu mərkəz 2017-ci il oktyabrın 18-də – Dövlət Müstəqilliyi Günündə istifadəyə verilib. Binada simulyasiya mərkəzi, trenajor zalı, zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, mətbəə, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Bir sözlə, hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub.









Burada praktik vərdişlərin tətbiq olunduğu trenajor zalına daxil oluruq. Trenajorlar bölməsinin zabiti Xətai Mustafazadə bildirir ki, zalda dərs və məşğələlərlə yanaşı, şəxsi heyətin atəş və sürücülük vərdişlərinin praktik olaraq təkmilləşdirilməsi həyata keçirilir.

Mərkəzdə olduğumuz müddətdə planauyğun olaraq tankçı zabitlərin T-90S tankı üzrə virtual atış təlimini izləyirik. Zabitlərdən Teymur Novruzov, Orxan Muradov, Pərviz Məmmədov daha yüksək nəticə göstərirlər. Xətai Mustafazadə məlumat verir ki, zalda T-72 M1, T-90S tank qurğuları ilə yanaşı, piyadaların əsas döyüş maşınlarından sayılan PDM-2 və PDM-3-lərin də trenajor qurğuları var.

Digər bölmədə isə tank əleyhinə idarəolunan raket qurğularının təlimi aparılır. Gizirlərdən Cavad Rzayev və Elməddin Camayev idarəetmə monitorunda taqım komandirləri üçün aparılan bu virtual təlimi izləyirlər. Hədəflərin aşkar olunması, nişangah obyekti ilə hədəf arasındakı məsafənin ölçülməsi, hərəkət edən hədəfə qarşı atəş açılması və obyektin müvafiq zaman çərçivəsində məhv edilməsi təlimə cəlb olunmuş hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsində mühüm rol oynayır. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Ümumiyyətlə, planauyğun olaraq virtual təlim meydançalarında keçirilən bu cür təlimlər yanacaq və mərmi sərfiyyatı olmadan şəxsi heyətin praktik döyüş vərdişlərinə yiyələnmələrinə şərait yaradır ki, bu da müasir dövrdə ordumuzun peşəkarlığının artırılmasında böyük əhəmiyyətə malikdir.

Buradakı simulyasiya mərkəzində isə artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarəolunan və xüsusi proqram təminatına malik kompüterlər və proyektorlar quraşdırılıb.

Mərkəzin zabiti Seymur Rüstəmovun sözlərinə görə, atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası müxtəlif şəraitdə atəşin idarə olunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür. Eyni zamanda aparılan təlimlər hərbi qulluqçularımızın istənilən döyüş şəraitində fərdi idarəetmə bacarıqlarının təkmilləşdirilməsinə imkan verir.

Təlim-Tədris Mərkəzində yaradılmış kitabxana da öz nümunəviliyi ilə seçilir. Belə ki, burada ordumuzun keçdiyi tarixi inkişaf yolunu özündə əks etdirən, həmçinin Azərbaycan və dünya ədəbiyyatı nümunələrindən ibarət 16 mindən artıq kitab, qəzet və jurnal materialları var. Kitabxanada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı vardır. Kitabxanada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına uyğun olaraq "Oxunması zəruri olan kitablar"dan ibarət guşə də yaradılıb.

Kitabxana müdiri Fərəh İsmayılova bildirdi ki, oxucuları təkcə hərbi qulluqçular deyil, həm də onların ailə üzvləridir. Eyni zamanda "N" hərbi hissəsinin nəzdində fəaliyyət göstərən tam orta məktəbin şagirdləri də kitabxanaya müraciət edirlər. Burada oxucularla müxtəlif görüşlər də təşkil edilir, kitab müzakirələri aparılır.

Bəli, bu gün hərbi sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin peşəkar döyüşçü kimi hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları təşkil edilir, zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində hərbi hissələrin peşəkar, təcrübəli kadrlarla komplektləşdirilməsi, əsas komanda-qərargah vəzifələrinin ali hərbi təhsilli, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bu mənada, haqqında bəhs edilən mərkəz ordumuzun hərbi qulluqçularının peşəkarlıq səviyyəsinin artırılmasına öz töhfəsini verir.

✍ **Səbuhi HƏSƏNOV**

# Xalq teatrının fəaliyyəti razılıq doğurur

*Bu gün muxtar respublikamızın ayrı-ayrı bölgələrində müxtəlif xalq teatrları fəaliyyət göstərir. Bu teatrlardan biri də Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrıdır. Teatr 1938-ci ildə dram dərnəyi kimi fəaliyyətə başlayıb. Dərnək ayrı-ayrı əsərlərdən parçalar səhnələşdirməklə tamaşaçıların rəğbətini qazanıb.*



Dərnək muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə də iştirak edib, özünə tamaşaçı auditoriyası toplamaq üçün teatr sənətinin imkanlarından istifadə etməyə səy göstərib. İllər ötdükcə könüllü sənətsevərləri ətrafında cəmləşdirə bilib. 1981-ci ildə isə "Xalq teatrı" statusunu alıb. Teatrın repertuarında Azərbaycan dramaturqlarının əsərləri xüsusi yer tutur. Bəhs olunan dövrdə teatrda Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah", Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır", Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin motivləri əsasında "Yuxu" menipeyası, Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" və başqa əsərlər öz səhnə həllini tapıb. Teatr dünya dramaturgiyasına müraciət etməyi də unutmayıb. Ötən illər ərzində bu teatrın səhnəsində Aleksandr Serqeyeviç Puşkinin "Motsart və Solyeri", Anton Çexovun "Ayı" və başqa əsərlər tamaşaya qoyulub. Fəaliyyəti dövründə burada aktyorlar, rejissorlar nəsli formalaşıb. Onlar professional səhnələrdə fəaliyyət göstərən həmkarlarının təcrübəsindən bəhrələnməyə çalışırlar.

Bu illər ərzində teatr xeyli uğura imza atıb, dəfələrlə fəxri fərmanlara layiq görülüb. Belə ki, 2008-ci ildə ölkə səviyyəsində keçirilən Xalq teatrlarının I ümumrespublika baxış müsabiqəsində Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli şah" əsəri ilə iştirak edib və 54 teatr kollektivi arasında II yerə layiq görülüb. Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin keçirdiyi xalq teatrlarının baxış müsabiqələrində bir sıra tamaşalarla çıxış edən teatrın hazırladığı "Motsart və Solyeri" tamaşası ən yaxşı rejissor işi nominasiyası ilə təltif olunub.

Teatrın quruluşçu rejissoru Nəsimi Məmmədzadədir. Bu sənətə qəlbən bağlı olan Nəsimi teatrın repertuarının zənginləşdirilməsi qayğısına qalır, gənclərin teatra cəlbini diqqət mərkəzində saxlayır. Söhbət zamanı o bildirdi ki, bu gün professional teatr üçün baza rolunu oynayan xalq teatrları öz yaradıcı kollektivini dram dərnəklərindən, kənd mədəniyyət evlərinin işçilərindən, orta məktəblərdən təmin edir. Xalq teatrları bu sənətin, ümumilikdə, milli mədəniyyətin inkişafına, ətrafına topladığı gənclərin bədii-estetik zövqünün formalaşmasına, asudə vaxtlarının səmərəli təşkilinə öz töhfəsini verir.

Şərur teatrı da qarşıya qoyulan bu vəzifələrin öhdəsindən gəlməyə səy göstərir, rayonun mədəni həyatında fəal iştirak edir, sakinlərin asudə vaxtlarının səmərəli təşkilində onlara yaradılmış şəraitdən lazımınca faydalanır.

Hərtərəfli qayğı ilə əhatə olunmuş teatrın fəaliyyəti diqqət mərkəzindədir. 2016-cı ildə bu sənət ocağının 35 illik yubileyinin qeyd olunması da bunun bariz ifadəsidir. Yubiley mərasimində teatr Şərur adət-ənənələrini əks etdirən "Şərur toyu" ədəbi-bədii kompozisiyası ilə tamaşaçılarını bir daha sevindirib.

Nəsimi Məmmədzadə onu da vurğuladı ki, dövlətimiz mədəniyyət işçilərinin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli mühit, münbit şərait yaradıb. Teatrın fərqlənən aktyorları yüksək dövlət mükafatlarına layiq görülüblər. Bizimsə öhdəmizə düşən daha məhsuldar çalışmaq, insanları düşündürən, maarifləndirən, milli ideologiyamıza xidmət edən səhnə əsərləri ilə tamaşaçı qarşısına çıxmaqdır. Bu vəzifələri yerinə yetirmək üçün yerlərdə olur, hərbi hissələrə gedir, hazırladığımız tamaşalarla çıxış edirik. Son illər qastrol coğrafiyamız bir qədər də genişlənib. Belə ki, muxtar respublikanın rayonlarında da tamaşalar göstəririk.

İnanırıq ki, Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı bundan sonrakı fəaliyyəti ilə də tamaşaçıların rəğbətini qazanacaq, rayonun mədəni həyatının güzgüsünə çevriləcək.

**Əhməd ƏHMƏDOV**

## Naxçıvan səhiyyəsində daha bir ilkə imza atılıb



*Naxçıvan Muxtar Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsinin həkimləri Səfər Qədimov və Həbib Məmmədov tərəfindən muxtar respublika səhiyyəsində ilk dəfə laparoskopik total histerektomiya əməliyyatı həyata keçirilib. Hazırda həkim nəzarəti altında olan xəstə tam sağalmaq üzrədir.*

Laparoskopik total histerektomiya müasir ginekoloji cərrahiyyənin zirvəsi, ən son nailiyyəti hesab olunur. Açıq abdominal histerektomiya əməliyyatı ilə müqayisədə laparoskopik histerektomiya qan itkisinin azlığı, əməliyyatın davametmə və stasionar müalicə müddətinin qısa olması, xəstələrin normal həyat tərzinə tezliklə qayıtması ilə seçilir. Bu əməliyyatlar az travmatik olub, əməliyyat sonrasında qarın boşluğu bitişmələrinin əmələ gəlməsi aşkar edilmir, piylənmə və şəkərli diabeti olan xəstələr üçün ideal üsul sayılır.

Əməliyyatın icraçılarından olan gənc həkim Həbib Məmmədov 2015-ci ildə Azərbaycan Tibb İnstitutunun Pediatriya fakültəsini bitirib. Həmin ildən Naxçıvan Muxtar Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsində həkim-rezident kimi fəaliyyətə başlayıb. Cari ilin iyul, avqust və sentyabr aylarında Türkiyə Respublikasının Kocaeli Universitetinin xəstəxanasında laparoskopiya üzrə kurs keçib.

Əməliyyatın digər iştirakçısı Səfər Qədimov isə Naxçıvan Muxtar Respublika Xəstəxanasında əməliyyat blokunun müdiridir. Təcrübəli mütəxəssis bu xəstəxanada çalışdığı üç il ərzində onlarla xəstənin həyatını xilas edib. O, Naxçıvan səhiyyəsinin təcrübəli cərrahlarından biri kimi fəaliyyət göstərir.

Son illər müayinə və müalicə proseslərində ilklərə imza atılması naxçıvanlı həkimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərin məntiqi nəticəsidir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. Nəticədə, yerli həkim kadrları tərəfindən müstəqil şəkildə TUR, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılması mürəkkəb cərrahi, o cümlədən açıq ürək əməliyyatlarının da Naxçıvanda keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb.

**Hüseyn ƏSGƏROV**

# Sağlamlığımız öz əlimizdədir

### *Çalışaq bu sərvəti zərərli qidaların öhdəsinə buraxmayaq*

*Müasir dövrdə qısa müddətdə hazırlanan qidalar insanların sevimli yeməyinə çevrilib. Ona görə də bəziləri belə yeməklərə daha çox üstünlük verirlər. Buna səbəb olaraq isə vaxt azlığını, işlərin çoxluğunu göstərirlər. Bununla da zamana qənaət etməklə, əslində, öz sağlamlıqlarına ziyan vururlar. Statistikaya görə, bu qidalardan uzaq durmağa çalışan insanlar belə, həftədə ən azı 2 dəfə, orijinal adı ilə desək, "fast food"lardan istifadə edirlər.*



"Fast food" dedikdə hamburger, pizza, dönər, sandviç, qızardılmış toyuq və sair kimi hazırlanması tez başa gələn yeməklər nəzərdə tutulur. Elə "fast food" sözünün özü də ingiliscədən tərcümədə "sürətli", "tez başa gələn yemək" mənasını verir.

İlk dəfə Amerikada satışına başlanan və sürətlə dünyaya yayılan bu yeməklər Azərbaycanda da gənclər, uşaqlar tərəfindən sevilə-sevilə yeyilir. Bu gün bəzi kafe və restoranlarda hazır yeməklər milli mətbəximizin təamlarından daha çox satılır. Bəs bu yeməklərin orqanizmimizə və ən önəmlisi azyaşlı uşaqlara olan zərərlərini bilirikmi? Həqiqətən, görəsən, hazır yeməklər evdə bişirilmiş yeməklərdən daha dadlıdır, yoxsa insanlara bunları sevdirən başqa səbəblər var? Bu sualların cavablarını çox axtarmağa gərək yoxdur. Həmin yeməkləri insanlara sevdirən tərkibindəki qatqı maddələri, dadlandırıcılardır. Kalorisi çox olan bu yeməklər, eyni zamanda çəki artımını sürətləndirir.

"Fast food"ların tərkibində doymuş yağların çox olması ürək-damar xəstəliklərinin, ağciyər xərçənginin, eyni zamanda xroniki narahatlıqların artmasına səbəb olur. Vitamin və mineral tərkibinin az olması səbəbilə bu yeməklər həzm sisteminin də zəifləməsinə zəmin yaradır. Əlbəttə, hazır yeməklərin fəsadları bunlarla bitmir. Bu yeməklərə həddindən artıq aludəçilik yarandığı zaman insan müxtəlif xəstəliklərlə üz-üzə qalır. Qeyd edim ki, aparılmış araşdırmalar zamanı həftədə 3 dəfədən artıq "fast food" ilə qidalanmış uşaqların digər uşaqlara nisbətən daha çox bronxial-astma xəstəliyinə tutulduğu sübut olunub. Çünki bu qidalar uşaqların zəif orqanizmləri və inkişaflarına mənfi təsir göstərir.

Elə bu mövzu ilə bağlı daha ətraflı məlumat almaq üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasının Terapiya şöbəsinin həkimi Mustafa Fətullayev ilə həmsöhbət olduq. Həkim bildirdi ki, hər bir fərd öz orqanizmini hazır qidalardan qorumağı bacarmalıdır. Bu qəbildən olan qidalar – cipsi, dönər, hamburger, hazır şorbalar və sair insan orqanizmi üçün təhlükə mənbəyidir. Qazlı içkilərin də gündəlik qəbul olunmasının əleyhinəyəm. Çünki qazlı içkilərin insan orqanizminə çox böyük toksiki təsiri var. Belə ki, həmin içkilər orqanizmə karbon oksidi verir ki, bu da qidada olan bütün toksinlərin bədəndən xaric olmasına maneçilik törədir. Halbuki biz toksinlərin orqanizmdən xaric olunmasına səy göstərməliyik. İnsanlar qazlı içkilərin əvəzinə təbii meyvə şirələrinə üstünlük versinlər. Bundan başqa, konservantlarla "bəzədilmiş", "gözoxşayan" bütün şirniyyatlardan uzaq olmaq lazımdır. Əgər artıq çəki probleminiz yoxdursa, ev şəraitində bişən şirniyyatları yemək olar. Çünki indi qidaların genetikası dəyişib. Hər kəs qidalandığı yeməklərin tərkibi ilə tanış olmalıdır. Onu da tövsiyə edərdim ki, insanlar qızardılmış çörəklərə üstünlük versinlər. Çünki qızardılmış çörəklərdə nişasta olmur.

Həkim onu da qeyd etdi ki, hər bir insanın orqanizmi yaşadığı ərazinin suyuna, torpağına, havasına uyğunlaşmış olur. Elə buna görə də hər kəs yerli məhsullar ilə qidalanmağa üstünlük verməlidir. Biz Amerikadan, Avropa ölkələrindən mətbəximizə daxil olan hazır yeməklərlə deyil, Naxçıvanın zəngin mətbəxinin təamları ilə qidalanmalıyıq, həm qatqısız təmiz yeməklər süfrələrimizi bəzəyər, həm də sağlamlığımızı belə yeməklərə qurban verməzik.

Terapevt onu da diqqətimizə çatdırdı ki, birinci növbədə, sağlam həyat tərzinə riayət etmək vacibdir. Hər ayın, fəslin özünəməxsus proqramı var. Məsələn, payızda vitaminlərə tələbat artır. Buna görə də orqanizm özü bizə sağlam rasional qidaya keçməyi diktə edir. Bunun üçün menyuda tərəvəz və meyvə bol olmalıdır.

Həkimin sözlərinə görə, mütəmadi olaraq yediyimiz qidalar beyin sağlamlığımıza da ciddi şəkildə təsir edir. Çalışaq ki, qızardılmış, təkibinə rəngləndirici, dadlandırıcı və qoruyucu əlavə edilmiş qidalardan uzaq olaq. Əminik ki, bu səbəblər bizləri "fast food" yeməzdən öncə 2 dəfə düşünməyə vadar edəcək. Ümid edirik ki, heç kim bu gerçəkləri bilərək sağlamlığını qurban verməz. Necə deyərlər, elə edək ki, hazır yeməklərin həyatımızda yeri doyumluq deyil, dadımlıq olsun. Bunların yerinə sağlamlığımız üçün lazım olan qidalarla – ağartı məhsulları, meyvələr, tərəvəzlər, eyni zamanda təbii məhsullarla, ev şəraitində hazırlanmış yeməklərlə qidalansaq, həm sağlamlığımızı, həm də büdcəmizi qorumuş olarıq.

Gəlin bizə bəxş edilən bu ömrü çalışaq ki, sağlam yaşayaq. Çünki sağlamlığımız bizim ən dəyərli xəzinəmizdir. Bu xəzinəni qorumaq isə öz əlimizdədir.

**Aygün BAĞIROVA**

*Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində 5 oktyabr – Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş bilik yarışması keçirilib.*

## Növbəti bilik yarışması Beynəlxalq Müəllimlər Gününə həsr olunub

Əvvəlcə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək Beynəlxalq Müəllimlər Gününün yaranma tarixindən danışıb və bu əlamətdar gün münasibətilə gələcəyin müəllimlərini təbrik edib.

Sonra bilik yarışmasına start verilib.

On komandanın iştirakı ilə keçirilən yarış 2 turdan ibarət olub. 35 sual olmaqla, iki mərhələdə keçirilən bilik yarışında I yerə Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi, II yerə İqtisad, III yerə isə Tarix-filologiya fakültələrinin tələbələri layiq görülüblər.

Qalib komandalar və fəal iştirakçılar diplom və fəxri fərmanla mükafatlandırılıb.

**Badəm MƏMMƏDOVA**

## Futbol üzrə yeni mövsümə start verilib



*Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının muxtar respublikanın Gənclər və İdman, Təhsil nazirlikləri ilə razılaşdırılmış təqvim planına uyğun olaraq futbol üzrə XVII muxtar respublika çempionatına start verilib.*

Doqquz komandanın mübarizə apardığı çempionat iki dövrədən ibarətdir. İlk dövrəyə bu ilin noyabr ayının sonlarında yekun vurulacaq. İkinci dövrənin oyunları isə fevral ayında başlayacaq. Reqlamentə əsasən hər turda bir komanda istirahət edəcək.

Çempionatda artıq ilk iki turun oyunları keçirilib. Dörd mövsümdür ki,çempionluq titulunu əldən verməyən "Araz-Naxçıvan" futbol komandası cari mövsümdə də iddialı olduğunu qazandığı qələbələrlə sübut edib. Belə ki, "qırmızı-ağlar" birinci turda Kəngərlinin eyniadlı komandasını minimal hesabla (0:1) məğlub edib. İkinci turda isə Culfa təmsilçisi "Əlincə"ni qəbul edən Naxçıvan şəhər komandası rəqibi 5 dəfə mərkəzə dəvət etməli olub – 5:0.

Ötən mövsüm olduğu kimi, "Babək" komandası yeni mövsümə də qələbələrlə başlayıb. Onlar ilk turda "Batabat" komandasını 6:1, ikinci turda isə "Dübəndi" komandasını 3:0 hesabı ilə məğlub ediblər. Səfərdə "Əlincə"yə (0:3), doğma arenada isə "Batabat"a (9:4) qalib gələn "Arpaçay" komandası da iki görüşdən maksimum xal toplayıb.

Son mövsümdə iddiasız çıxış edən Şahbuzun "Batabat" komandası yeni futbol mövsümündə də eyni uğursuzluğunu təkrarlayıb. Hər iki görüşdə məğlub olan şahbuzlular turnir cədvəlində xal qazanmayan dörd komandadan biridir. "Əlincə", "Dübəndi" və "Sədərək" komandaları isə xal qazanmamağla yanaşı, həm də rəqib qapılarından top keçirməyə də həsrətdirlər.

Bombardirlər cədvəlinə gəlincə isə "Arpaçay" komandasının hücumçusu İbrahim Əliyev 2 görüşdə rəqib qapılarından 5 top keçirib. "Araz-Naxçıvan" komandasının hücumçusu Vüsal Əliyevin aktivində isə 3 top var.

***I tur***

*"Əlincə" (Culfa) – "Arpaçay" (Şərur) 0:3*

*"Kəngərli" (Kəngərli) – "Araz-Naxçıvan" 0:1*

*"Batabat" (Şahbuz) – "Babək" (Babək) 1:6*

*"Dübəndi" (Ordubad) – Naxçıvan Dövlət Universiteti 0:3*

***II tur***

*"Sədərək" – "Kəngərli" 0:3*

*"Araz-Naxçıvan" – "Əlincə" 5:0*

*"Arpaçay" – "Batabat" 9:4*

*"Babək" – "Dübəndi" 3:0*

***Turnir cədvəli***

| S | Komandalar | O | Q | H | M | T/F | X |
|---|---|---|---|---|---|---|---|
| 1. | Arpaçay | 2 | 2 | 0 | 0 | 12-4 | 6 |
| 2. | Babək | 2 | 2 | 0 | 0 | 9-1 | 6 |
| 3. | Araz-Naxçıvan | 2 | 2 | 0 | 0 | 6-0 | 6 |
| 4. | NDU | 1 | 1 | 0 | 0 | 3-0 | 3 |
| 5. | Kəngərli | 2 | 1 | 0 | 1 | 3-1 | 3 |
| 6. | Sədərək | 1 | 0 | 0 | 1 | 0-3 | 0 |
| 7. | Dübəndi | 2 | 0 | 0 | 2 | 0-6 | 0 |
| 8. | Əlincə | 2 | 0 | 0 | 2 | 0-8 | 0 |
| 9. | Batabat | 2 | 0 | 0 | 2 | 5-15 | 0 |

***Qeyd:** "S" – sıra, "O" – oyun, "Q" – qələbə, "H" – heç-heçə, "M" – məğlubiyyət, "T/F" – top fərqi, "X" – xal.*

## *"Kitablar tozlanmasın"* səyyar layihəsi keçiriləcək

"Kitab qoy, kitab götür" devizi altında "Kitablar tozlanmasın" səyyar layihəsinin oktyabrın 5-də saat $11^{00}$-da Naxçıvan şəhərindəki Saat meydanının qarşısında təbliğat kampaniyası keçiriləcəkdir. Kampaniya zamanı bu layihədə oktyabr ayı ərzində mütəmadi iştirak edənlərə kitab hədiyyə olunacaqdır.

Qeyd edək ki, layihə çərçivəsində "Oxunması zəruri olan kitablar", dünya və Azərbaycan ədəbiyyatından nümunələr alınıb gənclərin istifadəsinə veriləcək.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən bu lahiyə qarşıdakı aylarda muxtar respublikanın şəhər və rayonlarında, həmçinin ali və orta ixtisas təhsili müəssisələrində də keçiriləcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Babək rayonu, Nehrəm kəndində yaşamış Səfərov Təyyar İbrahim oğlunun adına olan JN-$925^{A}$ inventar nömrəli, 10300058 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktorun müavini: RAUF ƏLİYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 720